## Riyaziyyat

1. Hesablayın: $1\frac{1}{5}\cdot 1\frac{1}{6}\cdot 1\frac{1}{7}\cdot\ldots\cdot 1\frac{1}{19}$
A) 1 B) 2 C) 3 D) 4 E) 5

2. Düzbucaqlı üçbucağın iti bucaqlarından biri $25°$olarsa, düz bucaq təpəsindən çəkilmiş median və hündürlük arasındakı bucağı tapın.
A) $10°$ B) $25°$ C) $15°$
D) $20°$ E) $40°$

3. $\overline{2abc}$ dördrəqəmli ədədi 9-a tam bölünərsə $a+b+c$ cəminin ən böyük qiymətini tapın.
A) 32 B) 25 C) 16
D) 34 E) 43

4. Sadələşdirin:$\frac{x^2-18x}{x-9}-\frac{81}{9-x}$
A) $x-9$ B) $x-6$ C)$x+3$
D) $x+9$ E) $x-3$

5. $a=3{,}4\cdot 10^7$ və $b=6\cdot 10^{-3}$ olarsa, ab hasilinin tərtibini tapın.
A) 4 B) 5 C) 3 D) 2 E) 6

6. Yan tərəfləri 17 sm olan bərabəryanlı üçbucağın oturacağına çəkilmiş hündürlüyü 8 sm olarsa, üçbucağın permetrini tapın.
A) 48 B) 51 C) 64 D) 72 E) 68

7. $\frac{a}{b}=2$olarsa, $\frac{a^2+2b^2}{a^2-b^2}$ ifadəsinin qiymətini tapın.
A) 2 B) 3 C) 4
D) 5 E) 6

8. Hesablayın:$\sqrt{(-\frac{5}{3})^2}+\sqrt[3]{2\frac{10}{27}}$
A) 2 B) 1 C) 4 D) 3 E) 5

9. $a$-nın neçə natural qiymətində $\frac{a}{15}$ kəsri düzgün kəsr, $\frac{32}{a}$ kəsrinin qiyməti isə tam ədəd olar?
A) 3 B) 6 C) 5 D) 4 E) 8

10. Şəkildə $x=110°$, $\beta=24°$, $\gamma=26°$ olarsa, $\alpha$-ı tapın.




A) $65^0$ B) $75^0$ C) $60^0$
D) $70^0$ E) $50^0$

11. Hesablayın: $\frac{\sqrt[6]{128}}{\sqrt[3]{4}\cdot\sqrt{2}}$
A) 1 B) 8 C) 4 D) 2 E) 16

12. Uyğun tərəfləri perpendikulyar olan iki bucağın ədədi ortası $75^0$ bu bucaqları tapın.
A) $30^0; 120°$ B) $75^0; 75°$ C) $60^0; 90°$
D) $90^0; 90°$ E) $50^0; 100°$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TmeyBilikTeam

13. Bir sinifdə qızların sayı oğlanların sayının $\frac{3}{7}$ hissəsidir. Qızlar bütün sinfin neçə faizini təşkil edir?
A) 30% B) 15% C) 35%
D) 25% E) 40%

14. $-\frac{2}{5}$ ədədinin kəsr hissəsini tapın.
A) -0,4 B) 0,6 C) 0,4
D) -0,6 E) 0

15. Düzbucaqlı üçbucağın düz bucaq təpəsindən çəkilən hündürlüyü hipotenuzu 1:4 nisbətində iki hissəyə ayırır.Hipotenuzun bu hündürlüyə olan nisbətini tapın.
A) 2,5 B) 3 C) 1,5
D) 2 E) 1,8

16. *A* çoxluğu 5-ə bölünən ikirəqəmli ədədlər çoxluğu, *B* çoxluğu isə 4-ə bölünən ikirəqəmli ədədlər çoxluğudur. $n(A \cap B)$ -ni tapın.
A) 6 B) 8 C) 10 D) 5 E) 4

17. $\frac{x^2-9}{x-a}$ kəsri ixtisar olunan kəsrdir.
$a$ parametrinin mümkün qiymətlərinin hasilini tapın.
A) -6 B) 3 C) -9 D) 12 E) -3

18. $2a = 5b = 3c,\ b + c + a = 62$ olarsa, $a + c$-ni tapın.
A) 32 B) 36 C) 45
D) 48 E) 50

19. Üçbucağın iki xarici bucağının cəmi $315^0$ olarsa,onun böyük daxili bucağını tapın
A) $140^0$ B) $130^0$ C) $135^0$
D) $125^0$ E) $145^0$

20. Soyuducunun qiymətini əvvəlcə 40%, sonra isə yeni qiyməti 20% azaltdılar.Bundan sonra soyuducunun qiyməti 480 manat oldu. Soyuducunun ilkin qiyməti neçə manat idi?
A) 800 B) 1200 C) 820
D) 1000 E) 960

21. $\Delta ABC$ - də BC=15 sm-dir. $\angle A = 60^0, \angle C = 45^0$olarsa, *AB*-ni tapın.
A) $3\sqrt{6}$ B) $3\sqrt{5}$ C) $6\sqrt{3}$
D) $5\sqrt{3}$ E) $5\sqrt{6}$

22. $\frac{x}{y} - \frac{x^3+y^3}{y^2} \cdot \frac{y}{x^2-xy+y^2} + 1$ ifadəsini sadələşdirin.
A) $y$ B) -1 C) 0
D) $x$ E) 1

**Açıq tipli test tapşırıqları:**

23. Korbucaqlı üçbucağın kiçik tərəfləri 8 sm və 9 sm olarsa, böyük tərəfin ən kiçik tam qiymətini tapın.

24. $7a^2b^mc^n$ birhədlisinin qüvvəti ən böyük birrəqəmli ədədə bərabərdir. $mn = 12$ olarsa, $m^2 + n^2$ cəmini tapın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TmeBirlikTeam1

25. Şəkildə DE orta xətt, AB=AC, ∠DBE =∠EBC, BC=16 olarsa, ABC üçbucağının perimetrini tapın.




26. Surəti 112 olan düzgün olmayan kəsrlərdən neçəsi ixtisar olunmayandır?

27. Uyğunluğu müəyyən edin.
1. $a = \sqrt{3}, b = \sqrt[3]{4}, c = \sqrt[6]{30}$
2. $a = \sqrt{11}, b = 2\sqrt{3}, c = 3\sqrt{2}$
3. $a = \sqrt{2}, b = \sqrt[4]{4}, c = \sqrt[8]{16}$

a. $a > b > c$ b. $a = b = c$
c. $c > a > b$ d. $c > b > a$
e. $a = b > c$

**Situasiya**

Binanaın həyətindəki su deposunun $\frac{1}{4}$ hissəsi hal hazırda su ilə doludur.Depoya iki nasos ilə su doldurulur. Depo tam boşaldıqda nasoslar işə düşür və depo 4 saata dolur.

28. Hal hazırda depoya ( $\sqrt{39+12\sqrt{3}} - \sqrt{3}$ ) ton su doldurularsa, depo dolar.Hovuz neçə ton su tutur?

29. Boş deponu nasoslardan biri 12 saata doldurursa digər nasos neçə saata doldurar?

30. Tam dolu depodan neçə ton su işlətmək lazımdır ki, depoda 20% su qalsın?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Coğrafiya

31. Dünya xəritəsi hansı miqyasda tərtib olunarsa, təhriflər daha çox olar ?
A) 1: 45 000 000 B) 1: 22 000 000
C) 1: 27 500 000 D) 1: 80 000 000
E) 1: 20 000 000

32. Geosinklinal qurşaqda yerləşən məntəqələr:




A) 2, 3, 5 B) 4, 5, 6 C) 1, 2, 3
D) 3, 4, 6 E) 2, 3, 4

33. IV saat qurşağının qərb kənar meridianı ilə V saat qurşağının şərq kənar meridianı arasındakı vaxt fərqi:
A) 4 saat B) 2 saat C) 3 saat
D) 2,5 saat E) 12 saat

34. Yerin şəkildəki vəziyyətinə əsasən doğru ***olmayan*** variantı seçin.




A) Cənub mülayim işıqlanma qurşağında gündüz gecədən uzundur
B) Cənub qütb işıqlanma qurşağında qütb gecələridir
C) Günəşin zenitdə olduğu enlik iki işıqlanma qurşağını ayırır
D) Ekvatora Günəş şüaları $66,5^0$ bucaqla düşür
E) Günəş şimal tropikində zenitdədir

T.me/BirlikTeam1

35. Xəritə-sxemdə təsvir olunmuş ada-dövlət hansı litosfer tavalarının sərhədində yerləşir ?




A) 1- Avrasiya, 2- Sakit okean, 3- Filippin
B) 1-Avrasiya, 2-Filippin, 3- Avstraliya
C) 1- Şimali Amerika, 2- Avrasiya, 3- Sakit okean
D) 1- Filippin, 2- Sakit okean, 3- Hind-Avstraliya
E) 1- Sakit okean, 2- Kokos, 3- Naska

36. Çökmə mənşəli süxurları seçin.

| | | |
|---|---|---|
| 1. Mərmər | 2. Çınqıl | 3. Kvarsit |
| 4. Daş kömür | 5. Qneys | 6. Əhəngdaşı |
| A) 2, 4, 5 | B) 1, 3, 5 | C) 1, 2, 6 |
| D) 2, 4, 6 | E) 2, 3, 5 | |

37. 23 sentyabrdan 21 marta qədər olan müddətdə ölkəmiz üçün səciyyəvidir:
A) Günəş üfüqdə şimal-şərqdən çıxır və şimal-qərbdə batır
B) Günəş şüalarının düşmə bucağı $50^0$ – dən böyük olur
C) günorta vaxtı şaquli cisimlərin kölgəsi cənub istiqamətini göstərir
D) payız və yaz fəsli müşahidə olunur
E) gecələr gündüzlərdən uzun olur

38. Bakı şəhərində 07 dekabr saat 10:52-dir. Eyni enlikdə yerləşən A məntəqəsində isə bu zaman saat 15:32-dir. Məntəqələr arasındakı ən qısa məsafəni hesablayın.
A) 6832 km B) 5551 km C) 3416 km
D) 5124 km E) 5978 km

39. Hansı materikdə Günəş ilboyu zenitdə olur ?
A) Avstraliya B) Şimali Amerika
C) Cənubi Amerika D) Afrika
E) Avrasiya

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

40. Klasteri tamamlayın.




A) 1- Kriptozoy, 2- Mezozoy, 3- Antropogen, 4- Devon
B) 1- Fanerozoy, 2- Mezozoy, 3- Trias, 4- Paleogen
C) 1- Fanerozoy, 2- Arxey, 3- Ordovik, 4- Təbaşir
D) 1- Kriptozoy, 2- Paleozoy, 3- Daş kömür, 4- Antropogen
E) 1- Fanerozoy, 2- Paleozoy, 3- Perm, 4- Paleogen

41. Aşağıdakı xüsusiyyətlər coğrafi şəbəkənin hansı elementi üçün doğrudur ?
- *Qütbləri birləşdirir*
- *Qərb və şərq yarımkürələrini ayırır*
- *Bakı ilə yerli vaxt fərqi 3 saat 20 dəqiqədir*

A) $23{,}5^0$ c. e. B) $0^0$ e. C) $80^0$ şm. e.
D) $0^0$ u. E) $180^0$ u.

42. Dərəcə toruna malik ***olmayan*** kartoqrafik təsvir vasitəsinin tərtib olunduğu miqyas:
A) 1: 350 000 B) 1: 2000
C) 1: 20 000 000 D) 1: 100 000
E) 1: 500 000

43. Kartoqrafik proyeksiya növünə əsasən daha çox təhrifin olduğu enliyi müəyyən edin.




A) $0^0$ e. B) $40^0$ c.e. C) $60^0$ şm.e.
D) $30^0$ c.e. E) $45^0$ şm.e.

44. 225° azimutla 2 km hərəkət edən səyyah ən qısa yolla hansı azimut və istiqamətlə geri qayıdar?
A) 45° , şimal-şərq B) 135° , cənub-qərb
C) 315°, şimal-qərb D) 180° , cənub
E) 270° , qərb

45. 22 iyun tarixində Günəş şüalarının düşmə bucağının düzgün verildiyi variantı seçin.




46. A nöqtəsinin mütləq hündürlüyü 60 m-dir. B və C nöqtələrinin hündürlük fərqini hesablayın.




A) 100 m B) 250 m C) 75 m
D) 500 m E) 125 m

47. Litosfer tavalarının subduksiya zonasında yerləşən vulkanlar:
A) Orisaba, Erebus, Hekla
B) Mauna-Loa, Kilimancaro, Kazbek
C) Fudziyama, Pinatuba, Krakatau
D) Etna, Fudziyama, Mauna-Kea
E) Kotopaxi, Hekla, San-Pedro

48. Konturlu şərti işarələri seçin.
1. meşə 2. bulaq 3. göl
4. körpü 5. kanal 6. bağ
A) 3,4,5 B) 1,3,6 C) 1,2,4
D) 2,4,6 E) 2,3,5

49. Dünyanın torpaq xəritəsində torpaq tipləri hansı təsvir üsulu ilə verilir ?
A) nöqtələr B) izoxətlər
C) hərəkət xətləri D) areal
E) keyfiyyət fonu

50. Bakıdan $270^0$ azimutla $50^0$ , sonra $0^0$ azimutla $11^0$ gedən müşahidəçinin çatdığı məntəqənin coğrafi koordinatlarını müəyyən edin.
A) 60º şm.e 10º ş.u.
B) 50º şm.e 70º ş.u.
C) 51º şm.e 0º u.
D) 40º şm.e 0º u.
E) 29º şm.e 30º ş.u.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

51. Aşağıdakı xüsusiyyətlərə əsasən planeti müəyyən edin.
- *Xəyali oxu ətrafında fırlanma dövrü 20 saatdan azdır*
- *Diametri 20 000 km-dən çoxdur*
A) Mars B) Yer C) Neptun
D) Venera E) Merkuri

52. Sxemə əsasən doğru olanları seçin.




1. Alt mantiya üst mantiyadan daha qalındır.
2. Mantiyanın qalınlığı nüvənin qalınlığından daha çoxdur.
3. Yerin radiusu 6371 km-dir.
4. Yerin səthindən nüvənin mərkəzinə qədər olan məsafə 2885 km-dr.
5. Nüvənin radiusu 3486 km-dir.
6. Xarici nüvə qatı 4 rəqəmi ilə işarə edilmişdir.
A) 2, 4, 5 B) 1, 4, 6 C) 1, 3, 5
D) 1, 2, 6 E) 2, 3, 5

**Açıq tipli test tapşırıqları:**

53. Yerin planetar inkişaf mərhələsində baş vermiş hadisələrin ardıcıllığını müəyyən edin.
1. İntensiv yağışlar nəticəsində ilkin okeanın-Pantalasın yaranması
2. Daxilində yüksək təzyiq nəticəsində radioaktiv maddələrin parçalanması və temperaturun artması
3. "Ay erası" mərhələsinin başlanması
4. Su buxarı və qazlardan ibarət ilkin atmosferin əmələ gəlməsi

54. IX saat qurşağına daxil olan coğrafi uzunluqları seçin.
1. 128° ş.u 2. 130° ş.u
3. 125° ş.u 4. 117° ş.u
5. 137° ş.u 6. 90° ş.u

55. Yerin Günəş ətrafında hərəkətinin coğrafi nəticələri:
1. yayda gündüzün, qışda isə gecələrin uzunluğu artır
2. qabarma və çəkilmə hadisəsi baş verir
3. vaxt fərqi yaranır
4. briz və dağ-dərə küləkləri baş verir
5. illik ritmlər yaranır

56. Nyu York və Bakı şəhərləri arasında qurşaq vaxt fərqi neçə saatdır ?




57. Uyğunluğu müəyyən edin.
1. Sönmüş vulkan
2. Fəaliyyətdə olan vulkan
3. Palçıq vulkanı

a. Böyük İşıqlı b. Krakatau c. Torağay
d. Vezuvi e. Keyrəki

***Situasiya***

***Sizə təqdim olunmuş mətnə əsasən 58- 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

*Coğrafi koordinatları 80° şm.e və 90° q.u olan məntəqədən eyni meridian çevrəsi üzrə hərəkətə başlayan səyyah əvvəl 0° azimutla, sonra isə 180° azimutla hərəkət edərək ümumilikdə 5550 km yol getmişdir. Səyyahın* ***çatdığı məntəqəyə aid*** *aşağıdakı sualları cavablandırın.*

58. Məntəqənin coğrafi koordinatlarını qeyd edin.

59. Yerləşdiyi işıqlanma qurşağını və ona aid iki xüsusiyyəti qeyd edin.

60. a) Məntəqə hansı saat qurşağında yerləşir ?

b) 22 iyunda bu məntəqəyə günəş şüalarının düşmə bucağını hesablayın.

## Tarix

61. İmperator Yustinianın fəaliyyətinə ***aid deyil:***
1. Ərəb qoşunlarının məğlub edilməsi
2. Sasanilər ilə müharibə
3. Müqəddəs Sofiya məbədinin inşası
4. Vandal krallığının tutulması
5. Roma canişininin Suassonda məğlub edilməsi
A) 1,2 B) 2,4 C) 3,4
D) 2,5 E) 1,5

62. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Zamua hakimlərinin səyi nəticəsində vilayətlərin birləşdirilməsi | Manna dövlətinin yaranması |
| 2 | Şuandahul və Durdukka şəhərlərində üsyan | Mannanın siyasi vəziyyətinin ağırlaşması |
| 3 | Azanın hakimiyyətə gəlməsi | Assuriya ilə ittifaqın pozulması |
| 4 | Ahşerinin İşpakay ilə müttəfiq olması | Midiya və Babilə qarşı mübarizədə Asssuriyaya kömək edilməsi |

A) 1,2 B) 2,4 C) 1,3
D) 2,3 E) 1,4

63. Antoninin qüvvələrinin Fraaspada məğlub edilməsindən sonra baş vermişdir:
A) Artabazdın Oktavianla diplomatik əlaqələr yaratması
B) Roma ordusunun Karrada məğlub edilməsi
C) III Antioxun Atropatenaya hücumu
D) Maqneziya döyüşü
E) Oroysun Kür döyüşündə məğlub olması

64. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Varaz Tiridatın taxta çıxması
2. Cavanşirin Xəzərlərin vassallığına düşməsi
3. Kadisiyyə döyüşü
4. Xəlifə Osmanın qoşununun Azərbaycanın cənubunu tabe etməsi
A) 2,3,1,4 B) 3,4,2,1 C) 1,3,4,2
D) 4,3,2,1 E) 2,1,4,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam

65. Osmanlıya aid olan hadisələri uyğunlaşdırın:
1. XIV əsrin I yarısı
2. XIV əsrin II yarısı
a. Gelibolu qalasının ələ keçirilməsi
b. Qayıların mərkəzinin Söyüddən Bursaya köçürülməsi
c. Bolqarıstan və Serbiyanın asılılığı qəbul etməsi
d. Misirin Osmanlının tərkibinə qatılması
e. "Qanunnamə" adlanan qanunlar toplusunun yaradılması
A) 1-d; 2-a,b B) 1-a,b; 2-c,e
C) 1-b; 2-a,c D) 1-c,d; 2-a,b
E) 1-a; 2-b,e

66. Ərəb dövlətinin "Rəşidi xəlifələr" dövrünə aid ***deyil:***
A) Misirin fəthi
B) Bizans və Sasani üzərində qələbələr
C) Xəzər xaqanlığı ilə toqquşmalar
D) Sasanilərin süquta uğradılması
E) Pireney yarımadasının tutulması

67. Verilənləri xəritədə rəqəmlər ilə işarələnmiş erkən orta əsr feodal dövlətlərinə uyğunlaşdırın:




a. Haşimilər sülaləsi tərəfindən idarə edilirdi
b. 1066-cı ildə Səlcuqların vassalına çevrildi
c. 988-ci ildə Şirvanşahlar dövlətindən asılı hala düşdü
d. Gürcü və Xəzərlərə qarşı uğurlu müharibələr aparırdı
e. III Fəzlin dövründə Səlcuq dövləti ilə münasibətlər pisləşdi
A) 1-a,b; 2-c,e B) 1-b; 2-d,e
C) 1-b; 2-a,c D) 1-a,e; 2-c
E) 1-d; 2-c,e

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

68. Çinin şimalında yaşayan türkləri birləşdirərək Göytürk dövlətini bərpa etdi:
A) Ağsuvar xan B) Qutluq xan
C) Bumin xan D) Bilgə xan
E) İstəmi xan

69. *Çin qaynaqlarında "Tanrı qutu", yəni tanrının yer üzündə siyasi hakimiyyət verdiyi şəxs adlanırdı. "Oğuznamələr"də isə əfsanəvi Oğuz xaqan ilə eyniləşdirilirdi.*
Mənbədə bəhs edilən hökmdara aiddir:
1. Pinçen döyüşündə qalib gəldi
2. Mərkəzi Asiyada 26 tayfanı öz hakimiyyəti altında birləşdirdi
3. Özünü Sin Şi Xuandi adlandırdı
4. Buddizmin əsas himayədarı və təbliğatçısı idi
5. Yunan-Makedoniya ordusuna qarşı mübarizə aparırdı
A) 1,2 B) 2,3 C) 3,4
D) 2,5 E) 1,4

70. Atabəylər dövlətinin XII əsrin 70-ci illəri üçün xarakterikdir:
A) Ani şəhərini ələ keçirən gürcü qoşunlarının məğlub edilməsi
B) Xorasan, Rey və Həmədanın Xarəzmşah Təkəş tərəfindən tutulması
C) Cəlaləddinin Təbrizi tutması
D) Cahan Pəhləvanın gürcüləri məğlub etməsi
E) III Toğrulun Həmədan döyüşündə məğlub edilməsi

71. E.ə II əsrin ikinci yarısında Romanın əyalətlərinə çevrilən əraziləri xəritədə müəyyən edin:




A) 1,2,3 B) 2,5 C) 2,3,4
D) 3,4 E) 3,5

72. ***Yanlış*** bəndi müyyən edin:
A) Misir ərazisi münbitliyinə görə “Bərəkətli aypara” adlanırdı
B) Dünya tarixinin ilk imperiyası Sarqon tərəfindən yaradılmışdı
C) Misir heroqlifləri XIX əsrdə oxunmuşdu
D) İlk Piramida firon Coserin olmuşdur
E) Şumerlər yazı aləti kimi qamış qələmdən istifadə edirdi

73. Uyğunluğu müəyyən edin:




A) 1,3,5 B) 1,3,6 C) 2,4,5
D) 2,3,6 E) 1,4,5

74. Eyler- Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Ərazisində XI əsrdə oğuz türkləri məskunlaşdı
b. Səlcuq sultanı I Məlikşahın dövründə fəaliyyətinə son qoyuldu
c. 1054-cü ildə Səlcuqlardan asılı hala düşdü.
d. Bizans-erməni qoşunlarını məğlub etdi
e. 1042-ci ildə zəlzələ nəticəsində paytaxt şəhər dağıldı
A) 1-b; 2-c; 3-a,e B) 1-c,d; 2-e; 3-a
C) 1-b,c; 2-a; 3-d D) 1-b,d; 2-e; 3-a,c
E) 1-a; 2-b; 3-c

75. Sacilərdən fərqli olaraq Salarilər dövləti:
A) Azərbaycanı vahid dövlət halında birləşdirdi
B) Xilafətin asılılığından çıxdı
C) Sülalə nümayəndələri Afşin titulu daşıyırdılar.
D) Ərdəbili paytaxt seçdi
E) X əsrin ikinci yarısında fəaliyyəti sona çatdı

76. Van gölü hövzəsi, Naxçıvan və ətrafındakı Azərbaycan torpaqları Səlcuqların nəzarəti altına alındı:
A) Çağrı bəyin Bizans qoşununa qalib gəlməsi nəticəsində
B) 1048-ci ildə
C) Rəvvadi və Şəddadilərin Səlcuqlara tabe olmasından sonra
D) İbrahim Yınalın başçılıq etdiyi qüvvələr tərəfindən
E) Arranın Şəmsəddin Eldənizə iqta kimi bağışlanması ilə

77. Mani təliminin geniş yayıldığı əsrə uyğun gəlir:
1. Albaniyada ilk xristian icmalarının yaranması
2. Albaniyada Arşaki sülaləsinin hakimiyyətinin başa çatması
3. I Xosrov Ənuşirəvanın hakimiyyətə gəlməsi
4. Albaniya və Atropatenanın Sasani hakimiyyəti altına düşməsi
5. Albaniyanın I Vaçe tərəfindən idarə olunması
A) 1,2 B) 4,5 C) 3,4
D) 1,5 E) 2,3

78. Xəzər və Uyğur xaqanlıqları üçün oxşar cəhətdir:
A) Tan sülaləsinin himayə edilməsi
B) Musəviliyin dövlət dini elan edilməsi
C) Maniçiliyin xaqan tərəfindən himayə edilməsi
D) X əsrdə süquta uğradılması
E) Dini pərakəndəliyin mövcud olması

79. Uyğunluğu müəyyən edin:

Xürrəmilər

| **1.** IX əsrin 20-ci illəri | **2.** IX əsrin 30-cu illəri |
| --- | --- |
| **a.** Müsafirin rəhbərliyi ilə çıxışların baş verməsi<br><br>**b.** Həşdadsər dağı yaxınlığında döyüş<br><br>**c.** Afşin Heydər ibn Kavusun komandan təyin edilməsi | **a.** Həmədan yaxınlığında xürrəmilərin məğlub olması<br><br>**b.** Cavidan və Əbu İmran arasında mübarizə<br><br>**c.** Babəkin Bəzzdən çıxaraq Bizansa yönəlməsi |

A) 1-a,b; 2-b B) 1-b; 2-c
C) 1-b; 2-a,c D) 1-c; 2- a,b
E) 1-b,c; 2-a

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

80. Düzgün ***olmayan*** bəndi müəyyən edin:
A) VIII əsrin əvvəllərində Albaniya Ərəblərin Arran adlı vilayətinə çevrildi
B) Cənubi Azərbaycan əhalisi Xəlifə Əlinin dövründə islamı qəbul etmişdi
C) Ərəblərdə vergi yığılmasına nəzarət edən qulluqçulara amil titulu verilirdi
D) Ərəblər bütpərəstləri zorla müsəlmanlaşdırmağa çalışırdılar
E) Ərəblərin gəlişinə qədər Cənubi Azərbaycanın mərkəzi Qazaka şəhəri idi

81. Göstərilənlər aiddir:
- *Qafqazın Bizansla müttəfiq olan xristian hakimləri darmadağın edildi*
- *Tiflis, Ani, Qars şəhərlərini ələ keçirdi*
A) I Toğrula
B) Sultan Səncərə
C) Məlikşaha
D) Arslan şaha
E) Alp Arslana

82. Niqbolu döyüşündən sonra baş vermişdir:
A) Paytaxtın Bursadan köçürülməsi
B) I Muradın taxta çıxması
C) Osmanlı ərazisinin paşalıq və sancaqlara bölünməsi
D) Maltəpə döyüşü
E) Ankara yaxınlığında döyüş

**Açıq tipli test tapşırıqları:**

83. Məhəmməd Cahan Pəhləvana aiddir:
1. Sultan titulunun qəbul edilməsi
2. Mərkəzi hakimiyyət uğrunda ara müharibələrin başlanması
3. Təbrizin Ağsunqurilərdən alınması
4. Dəbil şəhərinin gürcülərdən alınması
5. Paytaxtın köçürülməsi



84. Səbəb – nəticə əlaqələrinə aid uyğunluğu müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | V əsrdə Afinada demokratiyanın bərqərar olması | Afinanın elm mərkəzinə çevrilməsi |
| 2 | Afina demokratiyası və Sparta oliqarxiyası arasında ziddiyyətlər | Yunan - Əhəməni müharibəsinin başlanması |
| 3 | Yorulmuş ordunun döyüşməkdən imtina etməsi | İsgəndərin Hindistandan geri dönməsi |
| 4 | II Filippin Yunanıstana hücum etməsi | Yunan şəhər – dövlətləri arasında müharibələrin başlanması |

85. Erkən orta əsrlər Alban memarlığına aid olan abidələri müəyyən edin:
1. Sündi məscidi
2. Əlincə qalası
3. Lerikdə oğlanqala
4. Ağoğlan məbədi
5. Çarabkert qalası

86. Qəbilə icmasının mövcud olduğu dövr üçün xarakterikdir:
1. Süni oddan istifadənin başlanması
2. Qarabağın dağlıq hissəsində mis yataqlarının aşkarlanması
3. Daş alətlərinin cilalanması və deşilməsinin öyrənilməsi
4. Sənətkarlığın müstəqil sahəyə çevrilməsi
5. Boyalı qablar mədəniyyətinin formalaşması

87. Uyğunluğu müəyyən edin:
1. Qaraxanlı dövləti
2. Qəznəli dövləti
3. Uyğur dövləti
a. Tan sülaləsinin himayə edilməsi
b. Əl Biruni və İbn Sinanın hökmdar tərəfindən himayə edilməsi
c. Satuk Buğra xanın islamı qəbul etməsi
d. XIII əsrin əvvəllərində süquta uğraması
e. Qırğızların üsyanı nəticəsində süquta uğraması

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Mərkəzləşmiş hakimiyyəti kifayət qədər gücləndirən kral xarici siyasətə diqqət verir və apardığı işğalçı müharibələr zamanı bundan istifadə edirdi. Hakimiyyəti zamanı az qala 50-ə yaxın yürüş edərək yeritdiyi ittifaq siyasəti hesabına müxtəlif xalqları, o cümlədən saksları özünə tabe etmiş, Ərəb dövləti, Çin və Hindistanla ticarət əlaqələri qurmuşdu.
Zahirən qüdrətli görünən imperiya mərkəzləşmiş dövlət səviyyəsinədək yüksələ bilmədi. Əslində, feodal münasibətlərinin sürətli inkişafa başladığı və natural təsərrüfatın hökmranlığı şəraitində bu cür dövlət hakimiyyətinin formalaşması heç mümkün də deyildi. IX əsrdən başlayaraq feodallaşma prosesi daha da dərinləşdi.

88. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən əsrdə feodallaşma prosesinin nəticələrini yazın: (Azı 2 nəticə)

89. Mənbədə adı çəkilən tayfanın hansı kral tərəfindən (1) və onları necə (2) tabe edə bildiyini tarixi biliklərinizə əsasən müəyyən edin:

90. Mənbədə bəhs olunan dövlətin ən güclü hökmdarının ordu toplanmasında apardığı dəyişiklikləri qeyd edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1